

# Fəxrəddin Nəcməddin oğlu Kərimov – 70 il!

2021-ci il avqust ayının14-də neft sənayemizin inkişafında xüsusi xidmətləri olan korifey neftçilərimizin layiqli davamçılarından biri Fəxrəddin Nəcməddin oğlu Kərimovun 70 yaşı tamam olur.

F.Kərimov 1951-ci il avqust ayının 14-də Xızı rayonunun Xızı kəndində ziyalı ailəsində anadan olmuşdur. Onun bir yaşı tamam olmamış gənc ailə Bakı şəhəri, Əmircan qəsəbəsinə köçmüşdür.

O, 1968-ci ildə Əmircan qəsəbəsində yerləşən orta məktəbdə təhsilini başa vurduqdan sonra, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji kəşfiyyat fakültəsinə daxil olmuş və 1975-ci ildə təhsilini başa vuraraq "Dağ mühəndisi-geoloq" ixtisasına yiyələnmişdir. Həmin ildən Serebrovski adına NQÇİ-də (Qum adası) "Layların və quyuların elmi-tədqiqat və istehsalat işləri" sexində gənc mütəxəssis kimi operator vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1977-ci ilə qədər bu sexdə çalışan F.Kərimov öz işgüzarlığı sayəsində seçilən gənc mütəxəssis kimi operatordan mühəndis, böyük mühəndis vəzifələrinə qədər yüksəldi. 1977–1980-ci illərdə Mərkəzi mühəndis-texnoloji xidmətində növbə rəisi, 1980-1991-ci illərdə NQÇİ-nin "Texniki istehsalat" şöbəsinin rəisi vəzifələrində işləyərək, o, bir çox sahələrdə idarəetməni effektiv həll edən bir mütəxəssisə çevrildi. Bu illər ərzində F.Kərimov istehsalat prosesində neftqazçıxarmanın texnika və texnologiyası, neftin nəqli, hazırlanması və təhvili istiqamətlərində yeni texnikanın tətbiqi, yataqların abadlaşdırılması və istismarı məsələlərinin təkmilləşdirilməsi üzrə əmək fəaliyyətini davam etdirmişdir.

1991-ci ildə "Dənizneftqazlayihə" DETLİ-nin "Neft və qazçıxarmanın texnika və texnologiyası" laboratoriyasına dəvət alaraq böyük elmi işçi vəzifəsinə işə qəbul olundu.

1992–1997-ci illərdə F.Kərimov Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin (DNQÇ İB) Texniki istehsalat şöbəsində rəis müavini vəzifəsində çalışmışdır. F.Kərimovun bu fəaliyyət dövrü xüsusi qeyd olunmalıdır, çünki onun təşkilatçılığı sayəsində 1993-cü ildə DNQÇ İB-nin müəssisə və təşkilatlarında yeni texnika - texnologiyanın yaradılması, tətbiqi və mükafatlandırılması üzrə ilk Qaydalar (1994-cü il) işlənib hazırlandı və SOCAR-ın rəsmi icazəsilə onun yerlərdə tətbiqi reallaşdırıldı.

1997-ci ilin sonunda F.Kərimov Kompleks Dəniz Geoloji Kəşfiyyat İdarəsində (KDGKİ) baş mühəndis vəzifəsinə təyin edildi. Onun burada 2005-ci ilə qədər olan fəaliyyəti sayəsində KDGKİ-də yeni texnika və texnologiyanın tətbiqi genişləndirilərək tamamilə yeniləndi. Xüsusilə unikal ekosistemə malik olan Xəzər dənizi ekologiyasının öyrənilməsinə xüsusi diqqət yetirildi. F.Kərimovun təşkilatçılığı ilə "Azneft" İB ilə AMEA-nın bir qrup mütəxəssis alimlərinin apardıqları birgə nəzəri-praktik tədqiqat işləri öz həllini tapdı. Bilavasitə F.Kərimovun təşəbbüsü ilə bu idarədə Dənizdə Ekoloji Tədqiqatlar Ekspedisiyası yaradıldı ki, hazırda bu ekspedisiyanın bazasında Ekologiya İdarəsi fəaliyyət göstərir.

Böyük praktik və elmi təcrübəsi nəzərə alınaraq, 2006-cı ildə F.Kərimov "Dənizneftqazlayihə" DETLİ-yə dəvət olunur və burada əvvəlcə "Beynəlxalq layihələr və xarici əlaqələr" şöbəsinin rəisi, sonra isə direktorun beynəlxalq layihələr üzrə müavini vəzifəsinə təyin olundu. Bu vəzifədə 2009-cu ilə qədər çalışaraq o, dənizdə neftqazçıxarmanın bir sıra problem məsələləri üzrə layihələrin DETLİ-nin müvafiq şöbələri ilə birgə həllinə nail olmuşdur.

2009–2014-cü illərdə SOCAR-ın baş ofisində fəaliyyətini davam etdirərək, F.Kərimov "Neft və qaz hasilatı" şöbəsində" böyük mühəndis, Ekoloji layihələrin idarə edilməsi" şöbəsinin rəisi, "Neft və qaz yataqlarının işlənməsi" şöbəsində böyük geoloq vəzifələrində çalışmışdır.

2016-cı ildən F.Kərimov AMEA-nın yeni yaradılan Neft və Qaz İnstitutuna dəvət alır və "Neft-qaz sahəsinin geoekoloji problemləri" şöbəsinin müdiri olaraq, o, iqlim dəyişmələrinə mənfi təsirlərin azaldılması istiqamətində elm-tədqiqat işlərinin aparılmasına rəhbərlik edir.

F.Kərimov 40-a yaxın elmi əsərin, o cümlədən 17 patentləşdirilmiş ixtiranın və 45 səmərələşdirici təklifin müəllifidir.

Fəxrəddin müəllim 1982-ci ildə ixtiraçılıq üzrə Moskvada keçirilən Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində gümüş medala layiq görülmüşdür. 1999-cu ildə o, SOCAR-ın Fəxri fərmanı ilə təltif edilmiş, 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə mükafatlandırılmışdır.

2017-ci ildə F.Kərimov həmkarları ilə birgə "Ekoloji işlənmələr, resurslara qənaət edən və tullantısız texnologiyalar" nominasiyası üzrə "EcoWorld" Beynəlxalq ekoloji mükafatın birinci dərəcəli diplomuna və fəxri nişanına layiq görülmüşdür.

Bu gün Fəxrəddin müəllim 70 yaşının müdriklik zirvəsindədir. Bu zirvədə ona cansağlığı və yeni-yeni əmək nailiyyətləri arzu edirik.

**AMEA-nın Neft və Qaz İnstitutunun kollektivi**